# BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU, ƏMƏKDAR ELM XADİMİ ABUZƏR ALI OĞLU XƏLƏFOVUN 85 İLLİK YUBİLEYİ TƏNTƏNƏSİNDƏ ÇIXIŞI

**Bakı şəhəri, 20 dekabr 2016-cı il**

Hörmətli yubiley mərasiminin iştirakçıları, əziz həmkarlar, qonaqlar, qohumlar, sevimli tələbələr!

Əvvəlcə icazə verin başda Bakı Dövlət Universitetinin çox hörmətli rektoru, akademik Abel Məhərrəmov olmaqla sizi səmimi qəlbdən salamlayım, çox sağ olun deyim. Hörmət edib mənim yubileyimə gələn qədəmlərinizə mübarək olsun deyim.

Hörmətli yubiley iştirakçıları, bu xitabət kürsüsünə çıxmaqda məqsədim məni böyüdüb boya-başa çatdıran, mənim bir alim-pedaqoq kimi inkişafıma, yüksək adlar, rütbələr, şan-şöhrət qazanmağımın səbəbkarı olan xalqıma, dövlətimə, Bakı Dövlət Universitetinin möhtərəm kollektivinə öz minnətdarlığımı bildirməkdir.

Əziz həmkarlar!

Yaxşı məlumdur ki, insan öz ömrünün müdriklik zirvəsinə qədəm qoyanda daha kövrək olur, xoş sözə, səmimi münasibətə, ilıq qayğıya daha çox ehtiyac duyur. Ona görə də yubileyimin Bakı Dövlət Universitetində yüksək səviyyədə keçirilməsi həm mənə, həm də mənim yaşıdlarıma ən böyük hörmətdir.

Hörmətli mərasim iştirakçıları!

Mən yaşımın müdriklik pilləsinə qədəm qoyduğum zaman belə bir həqiqəti dərk etdim ki, mənsub olduğum doğma Azərbaycan xalqı öz ahıllarına, ağsaqqallarına dünyanın heç bir xalqına müyəssər olmayan hörmət və məhəbbət göstərir. Bu qloballaşan dünyada bəşəri dəyərlərə daxil ola biləcək, dünya xalqlarına örnək ola biləcək ən böyük keyfiyyətdir. Mən Azərbaycan xalqının kiçik övladlarından biri kimi onun isti qucağında böyümüşəm, boya-başa çatmışam.

Mənim hər zaman fəxr etdiyim, qürur hissi keçirdiyim çox qədim dövrlərdən dövlət qurmağı, dilini, dinini, soykökünü, milli-mənəvi dəyərlərini qoruyub saxlamağı bacaran, döyüşkən, istedadlı, mərd Azərbaycan xalqı keçdiyi tarixi inkişaf prosesində əldə etdiyi çox böyük elmi-mədəni nailiyyətlərlə fərqlənmişdir.

Azərbaycan xalqının taleyində mühüm əhəmiyyəti olan XX əsrin axırlarında, 1991-ci ildə SSRİ dağıldıqdan sonra xalqımızın illərdən bəri bəslədiyi arzusuna çatdı. Azərbaycan müstəqillik əldə etdi.

Mən bütün uğurlarıma görə doğma xalqıma borcluyam və onun sədaqətli bir övladı kimi onun böyüklüyü qarşısında baş əyirəm.

Əziz dostlar, mən 85 illik ömrümün 25 ilini müstəqil, suveren, dünyəvi, demokratik Azərbaycan dövlətinin vətəndaşı kimi yaşadığıma görə özümü dünyanın ən xoşbəxt insanı hiss edirəm. Müstəqillik elə bir qızıl üzükdür ki, hər bir millətin barmağına taxılmır. Belə bir üzüyü ən cəsur, ən iradəli, ən qəhrəman xalqlar gəzdirə bilər.

Ümumdünya tarixinin təcrübəsindən məlumdur ki, müstəqilliyi qazanmaq olduqca çətin olsa da, onu qoruyub saxlamaq, əbədi etmək, dönməz etmək ondan da çətindir. Bu çətinliyə sinə gərən, onu əldə edən xalqımız və onun böyük şəxsiyyətləri qarşısında baş əyirəm.

Ölkəmizin böyük çətinliklə əldə etdiyi müstəqillik xalqımıza olduqca baha başa gəldi. O dövrdə SSRİ-nin anti-Azərbaycan siyasətindən istifadə edən erməni faşistləri Dağlıq Qarabağı işğal etmək uğrunda mübarizəyə başladılar. Köməksiz və silahsız Azərbaycana rəhbərlik edən, SSRİ hökuməti tərəfindən təyin edilən vətən xainləri heç bir tədbir görmədilər. Torpağımızın 20 faizi öz havadarlarının köməyi ilə ermənilər tərəfindən işğal edildi. Azərbaycan hökumətinin apardığı təslimçilik siyasətinə qarşı dünyada misli görünməmiş xalq hərəkatı başlandı. Bu hərəkat SSRİ hökumətinin əlaltıları olan millət xainlərini süpürüb hakimiyyətdən atdı. Respublikada baş verən mürəkkəb şəraitdən istifadə edərək hakimiyyətə gələn Xalq Cəbhəsi və Müsavat cütlüyünün apardığı səriştəsiz siyasət üzündən həm cəbhədə, həm də ölkədə heç bir irəliləyişə nail olmaq mümkün olmadı. Ölkədə siyasi iqtisadi böhranın baş verdiyi, ölkənin vətəndaş müharibəsi ilə üz-üzə dayandağı bir şəraitdə müdrik Azərbaycan xalqı türk dünyasının böyük oğlu Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı.

1993-cü ildə xalqın tələbi ilə Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizi parçalanma bəlasından xilas etdi, milli dövlətçiliyin möhkəmlənməsi üçün əlverişli şərait yaratdı.

Böyük Allah Heydər Əliyevi Azərbaycan xalqının bu dar günü üçün onu qoruyub saxlamış, xalqın imdadına göndərmişdi. Məhz buna görədir ki, qədirbilən, müdrik xalqımız Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü Milli Qurtuluş günü elan etdi.

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra böyük cəsarətlə həyata keçirdiyi siyasət nəticəsində ölkəmizdə tam sabitlik yarandı. Milli ordumuz formalaşdı.

Siyasətin, iqtisadiyyatın elm və mədəniyyətin inkişafı naminə islahatlar aparıldı. Müstəqil Azərbaycan dövlətinin ilk konstitusiyası qəbul





edildi. Milli dövlətçilik ideyaları real həyatda öz parlaq ifadəsini tapdı. Müstəqilliyimizin əbədiliyi, dönməzliyi təmin edildi. Azərbaycan beynəlxalq aləmdə öz şərəfli yerini tutdu.

Hörmətli yubiley iştirakçıları, mənə çox böyük xoşbəxtlik nəsib olmuşdur ki, Heydər Əliyevin ölkəyə 34 illik rəhbərliyi dövründə yaşamış, onun bütün fəaliyyətini öz gözlərimlə görmüş, həyata keçirdiyi tədbirlərin əhəmiyyətini anlamış, onu yüksək dəyərləndirmiş, Ulu öndərin siyasətinin, ideyalarının həyata keçirilməsində yaxından iştirak etmişəm.

Azərbaycanda elm, təhsil və mədəniyyətin böyük təəssübkeşi olmuş Ulu öndər mənim fəaliyyət göstərdiyim kitabxana işinə, kitabxanaçılıq təhsilinə ali qiymət verirdi. O mənim kiçik əməyimi də yüksək qiymətləndirmiş, məni yüksək dövlət mükafatlarına layiq görmüşdür. Mən bu böyük şəxsiyyətin ruhu qarşısında baş əyirəm və söz verirəm ki, bundan sonra da Heydər Əliyev ideyalarının yerinə yetirilməsində yaxından iştirak edəcəyəm.

Heydər Əliyevin Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi qarşısında böyük xidmətlərindən biri də onun işini, ideyalarını müvəffəqiyyətlə davam etdirə bilən varis hazırlaması olmuşdur.

Məlumdur ki, 2003-cü ildə ölkədə keçirilən növbəti prezident seçkisi ərəfəsində Ulu öndər xəstələndi. Amansız xəstəlik ona bu seçkilərdə iştirak etmək imkanı vermədi. Məhz buna görə Ulu öndər ABŞ-da xəstəxanada yatarkən Azərbaycan xalqına müraciət etdi. Sanki bu müraciət Ulu öndərin xalqa vəsiyyəti idi.

Müraciətdə deyilirdi: "Üzümü sizə, həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, yeni Azərbaycan Partiyası sədrinin 1-ci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellekt, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firəvanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Qədirbilən Azərbaycan xalqı ulu öndərin bu çağırışını bir vəsiyyət kimi qəbul edərək öz müdrik liderinə sədaqətini nümayiş etdirdi və İlham Əliyevi 2003-cü ildə yekdilliklə prezident seçdi. Böyük siyasətçi, uzaqgörən Heydər Əliyev həmişə olduğu kimi bu dəfə də yanılmamışdı. İlham Əliyev fəaliyyətinin ilk günlərindən Heydər Əliyev siyasi kursunu böyük uğurla davam etdirməyə başladı. Heydər Əliyevin elmi-nəzəri ideyalarını, fəlsəfi

dünya baxışını dərindən bilən və onu inkişaf etdirməyi bacaran bir prezident kimi xalqın böyük məhəbbətini qazandı. İlham Əliyev prezidentlik fəaliyyətinə başlayarkən xalqa verdiyi "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" vədinə əməl edərək həyata keçirilən işləri inamla irəliyə aparmaq qüdrətinə malik olduğunu göstərdi.

İlham Əliyev ölkənin iqtisadi, siyasi və mədəni inkişafında, xalqın sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində uğurlar qazandı. Bu uğurlar ölkə daxilində və beynəlxalq aləmdə onun imicini yüksəklərə qaldırdı.

Multikulturalizm ideyalarının elmi-nəzəri əsaslarının yaradılması sahəsindəki fəaliyyəti onu dünya şöhrətli prezident kimi məşhurlaşdırdı. Bütün bunlara görə mən bir ağsaqqal kimi dövlətimizin başçısına böyük minnətdarlığımı bildirirəm. Xalq təsərrüfatının bütün sahələrində olduğu kimi elm, təhsil və mədəniyyət sahəsində də böyük uğurlar qazanılmış, geniş miqyaslı islahatlar aparılmışdır. Xüsusi ilə Azərbaycan təhsilinin yenidən qurulması sahəsində aparılan islahatlar, onu qloballaşan dünyanın təhsil prosesinə, xüsusilə Avropa təhsil və elm prosesində aparılan islahatların bəhrəsini biz son illərdə Azərbaycan ali məktəblərinin flaqmanı olan Bakı Dövlət Universitetinin timsalında görə bilərik.

Bakı Dövlət Universitetinin respublikamızda elm, mədəniyyət və təhsilin inkişafında böyük xidmətlərini yüksək qiymətləndirən, universitetin məzunu olması ilə fəxr edən ulu öndər Heydər Əliyev demişdir: "Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır."

Universitetdə aparılan işlərin miqyasına görə son illəri intibah dövrü kimi xarakterizə etmək olar. Bu intibah özünü universitetin kompleks inkişafında göstərmişdir. Zənnimcə, bu kompleks inkişafa daxil olan amillər içərisində: universitetin maddi-texniki bazasının möhkəmlənməsi, yeni tədris korpuslarının istifadəyə verilməsi, tələbə qəbulunun artırılması, kadr potensialının güclənməsi, universitetin tədris prosesinin daha da möhkəmlənməsi, yeni fakültələr və kafedraların açılması, ən mühümü isə təhsil islahatlarının aparılması, Bolonya təhsil prosesinin yaradıcılıqla tətbiq edilməsi, universitet elminin daha da inkişaf etdirilməsi, nəşriyyat fəaliyyətinin yüksək mərhələyə çatdırılması daxildir.

Ulu öndər Heydər Əliyev tərəfindən universitetə rektor təyin edilən akademik Abel Məhərrəmovun bu yüksəliş prosesindəki xidmətləri danılmazdır. İlk gündən bütün bilik və bacarığını, enerjisini və potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirmişdir. O, bu ali təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bilmişdi. Akademik Abel Məhərrəmov sözün əsil mənasında çoxsaylı kollektivi vahid bir orqanizm kimi hərəkətə gətirdi, ahəngdar mexanizm kimi, sistemli və fasiləsiz fəaliyyətinə, hamını bir nəfər kimi universitetin tədris-metodik və elmi-tədqiqat işinə cəlb etməyə nail oldu. Qısa zaman kəsiyində universitet dünyanın qabaqcıl universitetləri sırasında özünə yer almağa müvəffəq oldu.





Bu tərəqqi və inkişaf Abel müəllimin adı və titanik fəaliyyəti ilə bağlıdır. Bu yaxınlarda elm və təhsil ictimaiyyəti arasında qurucu rektor kimi tanınan akademik Abel Məhərrəmovun bu yaxınlarda dünyanın qədim və nüfuzlu akademiyalarından biri olan Rusiya Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi Azərbaycan elminin böyük nailiyyəti hesab edilməlidir. 300 ilə qədər tarixi olan bu qədim və nüfuzlu elm məbədinə, akademik seçilməsi ilk Azərbaycan oğlunun məhz bizim rektorumuz olması ilə fəxr edirik.

Əziz həmkarlar! Abel Məhərrəmov həmçinin mənim ən böyük xeyirxahım, təəssübkeşim olmuş, kiçik əməyimi yüksək qiymətləndirmiş bir şəxsiyyətdir. Mən bütün universitet kollektivinin sevimlisi olan akademik Abel Məhərrəmova sonsuz təşəkkürümü və məhəbbətimi bildirirəm. Ona cansağlığı, uzun ömür, Azərbaycan elm və təhsilinin inkişafı naminə böyük yaradıcılıq uğurları arzu edirəm.

Möhtərəm dostlar!

Mən kitabxanaçılıq sənətini sonsuz məhəbbətlə sevən, kitabxana işini yüksək qiymətləndirən, onun əhəmiyyətini cəmiyyət üzvlərinə başa salmağa çalışan və ziyasını hər yerə yayan, bir sözlə, Azərbaycan kitabxanaşünaslığının inkişafı naminə bütün mübarizələrdən qalibiyyətlə çıxan bir insan kimi, bir şəxsiyyət kimi də elə Bakı Dövlət Universitetinə borcluyam.

Başqa sözlə desək, bu universitet məndən ötrü müqəddəs bir ocaqdır.

Hamı təsdiqləyə bilər ki, Azərbaycanda "Bakı Dövlət Universitetinin mühiti" anlayışı çox məşhurdur. Mən bu mühiti heç bir ali məktəbin mühiti ilə qoşalaşdıra bilmərəm. Buranı başqa təhsil müəssisələrindən fərqləndirən əsas cəhət budur ki, universitet kollektivinin hər bir üzvü daim öyrənmək, qurmaq, yaratmaq arzusu ilə nəfəs alır. Burada elə böyük şəxsiyyətlər fəaliyyət göstərir ki, onlarla 5-10 dəqiqə söhbət etmək belə insanı nəcibləşdirir, zənginləşdirir, yaşamağa, yaratmağa, xalq üçün gözəl işlər görməyə ruhlandırır. Ona görə də universitet mühitinə düşən, bu mühitdə tərbiyələnən və formalaşan hər bir tələbə gələcəkdə xalqımızın görkəmli şəxsiyyəti kimi tanınır, doğma vətənə şərəf, şöhrət və iftixar gətirir.

Əziz mərasim iştirakçıları mənim bir insan, şəxsiyyət, alim-pedaqoq kimi yetişməyimdə, şan-şöhrət qazanmağımda böyük xidmətləri olan Bakı Dövlət Universitetinin şöhrətli kollektivinə öz dərin minnətdarlığımı bildirirəm, onun qarşısında baş əyirəm, bağrıma basıb öpürəm.

Mənim alim və vətəndaş kimi yetişməyimdə, tanınmağımda və formalaşmağımda xüsusi rolu olan kitabxanaçılıq fakültəsinin kollektivini də

bu əziz gündə çox böyük minnətdarlıq hissi ilə qeyd etməyi özümə mənəvi borc bilirəm. Mənim üçün olduqca xoşdur ki, 25 il bu fakültənin dekanı, 53 il kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsində işləmişəm. Ötən müddət ərzində fakültədə çox sanballı, yüksək səviyyəli, qabiliyyətli kollektiv yetişmişdir və Azərbaycanın müstəqilliyinə tamamilə layiq olan bu istedadlı kollektiv bu gün son dərəcə səylə və müvəffəqiyyətlə fəaliyyət göstərir.

Ona görə də icazə verin məni bir insan kimi, bir vətəndaş kimi, bir alim kimi, sadəcə olaraq Abuzər Xələfov kimi tanıdan, şöhrətləndirən, inkişafıma həmişə kömək edən Kitabxanaçılıq-informasiya fakültəsi kollektivinin hər bir üzvünə səmimi minnətdarlığımı bildirim.

Bu təntənəli gündə adını iftixarla çəkdiyim və sonsuz minnətdarlığımı çatdıracağım daha bir sevimli təbəqə də var: onlar mənim tələbələrimdir. Bilirsiniz, bu 65 illik pedaqoji fəaliyyətim dövründə mən qəti yəqin etmişəm ki, təkcə müəllim tələbənin hərtərəfli inkişafına kömək etmir, eyni zamanda tələbə də müəllimin yetkinləşməsinə təsir göstərir, onun formalaşmasında yaxından iştirak edir. Mən həmişə çalışmışam ki, ilk növbədə tələbələrimin sevimlisinə çevrilim, tələbə-müəllim münasibətlərini yüksək səviyyədə qoruyum. Keçən müddət ərzində mən mindən artıq tələbəyə dərs demişəm və bu gün sadə müəllim kimi iftixarla qeyd edirəm ki, indiyə qədər heç bir tələbə ilə incikliyimiz olmayıb. Onların hamısı bu gün də mənim hörmətimi saxlayır, mənə ehtiram bəsləyir, şöhrətimi artırır. Azərbaycanın hansı guşəsində olsam mənə tərəf xeyirxah əllər uzanır. Bu xeyirxah əllərin sahibləri mənim keçmiş tələbələrimdir və bu məni son dərəcə sevindirir. Həmin məqamda ürəyimdən bu hisslər keçir: nə yaxşı ki, müəllim olmuşam, nə yaxşı ki, tələbələrimin rəğbətini qazana bilmişəm, nə yaxşı ki, yaşımın ahıl çağında keçmiş tələbələrimlə alnıaçıq, üzüağ görüşürəm. Məncə, bundan böyük səadət ola bilməz.

Mən tələbələrimlə fəxr edirəm!

Daha bir vacib cəhəti qeyd etmək istəyirəm. Mən Bakı Dövlət Universitetində işlədiyim müddətdə bir sıra məsul ictimai vəzifələri də məsuliyyətlə yerinə yetirməyə çalışmışam. Ayrı-ayrı vaxtlarda dekan, kafedra müdiri, partiya komitəsi katibinin müavini, məsul katib, Böyük Elmi Şuranın üzvü, Nəzarət Komitəsinin sədri, Veteranlar Şurasının sədri, Ağsaqqallar Şurasının sədri, Nəşriyyat Şurasının sədri, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin sədri və digər ictimai vəzifələri şərəflə icra edərkən bir çox şanlı-şöhrətli, adlı-sanlı alimlərlə, yüksək intellektə, dərin elmi təfəkkürə, əsl vətəndaşlıq mövqeyinə malik şəxsiyyətlərlə ünsiyyətdə olmuş, iş prosesində onların hər birindən müəyyən müsbət keyfiyyətlər öyrənmişəm. Məhz bu gözəl xüsusiyyətlər bu gün mənim ağsaqqal kimi müəyyən mövqe tutmağıma çox böyük təsir göstərmişdir və buna görə yenə də universitet rəhbərliyinə, universitet kollektivinə minnətdaram.





Mən iftixarla deyirəm ki, Bakı Dövlət Universitetinin müəllimiyəm. Mən fəxr edirəm ki, ömrümün 65 ilini bu böyük elm ocağına həsr etmişəm.

Bakı Dövlət Universiteti Şərqin ən böyük təhsil ocaqlarından biri kimi, məşəl kimi yanır və öz parlaq işığını dünyanın hər yerinə yayır. Təsadüfi deyil ki, bu gün burada iştirak edən ziyalılarımızdan bir çoxu dünya miqyaslı alimlər kimi tanınır, Azərbaycana başucalığı gətirir. Onlarla hamımız fəxr edirik.

Əziz dostlar!

İncə bir məqamı da diqqətinizə çatdırmaq istəyirəm. İndi yaşımın elə bir dövrüdür ki, bunu mütləq qeyd etməliyəm. Səmimiyyətlə etiraf edirəm ki, insan yaşa dolduqca, kamilləşdikcə, müdrikləşdikcə, cavanlığa məxsus çılğınlıqdan uzaqlaşdıqca yaxşılıq etməyə, qaygı göstərməyə daha çox can atır. Ona görə də həmişə yamanlıqdan uzaq olmağa, yaxşılıqlar etməyə tələsin. Çünki dünyada bir yaxşılıq, bir də pislik qalır. Qoy hər birinizin adınız yalnız yaxşılıqla qoşa çəkilsin, yaxşılıqla ucalsın.

Ulu Nizami deyir:

Həmişə dünyada yaşılıq axtar,
Yaxşı ad almaqda əbədiyyət var.

Dünyada hər bir şeyi ayrı-ayrı şəxsiyyətlər yaratsa da, nəticədə hər şey insanlara qalır. Bu mənanı dərk etmək və qiymətləndirmək çox vacibdir. Belə ki, bizim hər birimizin səmərəli fəaliyyətimizin bəhrəsi bütövlükdə Azərbaycan xalqına məxsusdur və biz bundan sonsuz fərəh duymalıyıq.

Mən bütün əziz həmvətənlərimi dünyada xalq üçün, millət üçün ən əziz olan müstəqilliyimizi möhkəmləndirməyə, müstəqil Azərbaycan dövlətinin daha da yüksəlməsi uğrunda ardıcıl və əbədi mübarizəyə çağırıram.

Nəhayət, məclisdə iştirak edən, haqqımda səmimi söz söyləyən, mənim kiçik əməyimə yüksək qiymət verən hörmətli natiqlərin hər birinə, ilk növbədə islahatçı təhsil nazirimiz Mikayıl müəllimə, qurucu və təşkilatçı rektorumuz əziz Abel müəllimə, universitet kollektivinin hər bir üzvünə, doğmalarıma, dostlarıma, həmkarlarıma, tələbələrimə ürəkdən gələn səmimi minnətdarlığımı və təşəkkürümü bildirirəm. Hər birinizi ayrı-ayrılıqda bağrıma basır, “Çox sağ olun” deyirəm. Hamınızın qarşınızda baş əyirəm.